*22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günüdür*

# MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARININ İŞIĞINDA İCRA XİDMƏTİ YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYUR



**22 noyabr ədliyyə işçilərinin peşə bayramı günüdür. Tarixin sınağından məharətlə çıxmış, 100 illik fəaliyyəti geridə qoymuş Azərbaycan ədliyyəsi bu il öz yeni əsrinə ilk addımlarını atmışdır. Əlbəttə, ədliyyəmizin növbəti əsrinin tələbləri qətidir - müasir, elmi və mütərəqqi olmaq, insan hüquq və azadlıqlarını ali dəyər kimi tanımaq və qorumaq.**

Ədliyyənin əsas xətti ədalət mühakiməsi olduğu kimi, onun keyfiyyətinin və səmərəliliyinin artırılmasında, insan hüquq və azadlıqlarının etibarlı təminində məhkəmə və digər orqanların qərarlarının icrası mexanizmləri də müstəsna əhəmiyyətə malikdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ötən illər ərzində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində ədalətli məhkəmə hüququnun mühüm və ayrılmaz hissəsi olan məhkəmə qərarlarının icrası işi xeyli yaxşılaşdırılmış, o cümlədən, icra xidmətinin strukturu və kadr korpusu formalaşdırılmış, ilk dəfə olaraq sahəvi qanunlar qəbul edilmiş, məhkəmə qərarlarının icra edilməməsinə görə məsuliyyət ali qanun - Konstitusiya səviyyəsində təsbit olunmuş, qanunvericilik əsaslı şəkildə yenilənərək təsirli icra tədbirləri müəyyən edilmiş, icra məmurlarının səlahiyyətləri mütəmadi olaraq artırılmış, icra və probasiya qurumlarının funksiyaları ayrılaraq vəzifələri konkretləşdirilmişdir.

İcra sahəsində işin müasir çağırışlara uyğun qurulması, fiziki və hüquqi şəxslərin mənafelərinin vaxtında və tam təmin edilməsi fəaliyyətin ümdə şərtləri kimi diqqətdə saxlanılmış, icranın təkmilləşdirilməsi istiqamətində göstərilən bütün səylər bu istiqamətlərə yönəldilmişdir.

Yüksələn templə artmasına baxmayaraq, görülən məqsədyönlü tədbirlər nəticəsində icrası təmin edilən icra sənədlərinin sayı, icra işləri üzrə fiziki və hüquqi şəxslərə, habelə dövlət büdcəsinə ödətdirilən vəsaitlərin məbləğləri də ilbəil artmış, maddi-texniki təminat davamlı olaraq gücləndirilmiş, vakant ştatların gənc və enerjili kadrlarla komplektləşdirilməsinə üstünlük verilmiş, vətəndaşlara göstərilən həssas münasibət nəticəsində daxil olan müraciətlərin sayı icra sənədlərinin artması kontekstində xeyli azalmış, qarşıya qoyulan məqsədlərə, əsasən nail olunmuşdur.

Ölkə rəhbərliyinin dinamik inkişafa hesablanmış çoxşaxəli islahalatları son dövrdə xüsusilə intensivləşməklə məhkəmə-hüquq sahəsinə dərindən sirayət etmiş, bu hal Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 18 dekabr 2018-ci il tarixli Sərəncamında öz parlaq təzahürünü tapmışdır. Proqram qarşıda duran 5 il ərzində ədliyyə sahəsinin bütün əsas istiqamətləri üzrə görülməli olan tədbirləri müəyyən etmiş və ədliyyəmizin inkişafı üçün "yol xəritəsi" olmuşdur.

Möhtərəm Prezidentin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 03 aprel 2019-cu il tarixli Fərmanı isə adına uyğun olaraq islahatların dərinləşdirilməsi, eyni zamanda şaxələndirilməsi üçün bu sahədəki prioritet məsələləri müəyyənləşdirmiş, məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, onun operativliyinin və əlçatanlığının təmin olunması, neqativ ünsürlərdən təmizlənilməsi, işin üsul və vasitələrinin informasiya texnologiyalarının ən son nailiyyətləri ilə uzlaşdırılması kimi vacib tələbləri müəyyən etmişdir. Üç bəndi bilavasitə icra xidmətinin fəaliyyəti ilə bağlı olan bu Fərmanda qoyulmuş aidiyyəti tapşırıqların vaxtında və dürüst icrası üçün təxirəsalınmaz tədbirlər görülmüş, qısa müddətdə bir sıra müsbət nəticələr əldə edilmişdir.

İcra sənədlərinin icrasının vaxtında təmin edilməsi və neqativ hallarla mübarizə üzrə müvafiq tədbirlər planı hazırlanaraq tətbiqinə başlanılmış, Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş icra və probasiya qurumlarının geniş ümumrespublika müşavirəsində konkret tapşırıqlar verilmişdir.

Fəaliyyətində özünü doğrultmayan, qanunazidd hərəkətləri ilə islahatlara kölgə salan bir sıra işçilər barədə intizam tədbirləri görülmüş, hətta bəziləri ədliyyə orqanlarından xaric edilmiş, uzun müddət bir qurumda çalışmanın sui-istifadə hallarına zəmin yarada biləcəyi nəzərə alınmaqla çoxsaylı əməkdaşların rotasiyası həyata keçirilmişdir.

Əlbəttə, işin səmərəli təşkili, qarşıya qoyulan vəzifələrin uğurlu icrası, hər şeydən əvvəl mənəvi cəhətdən saf, müasir dünyagörüşlü, dərin bilikli və hazırlıqlı kadrların sayəsində mümkündür. Bu mənada icra xidmətinin fəaliyyətinin günün tələblərinə uyğun qurulması kadrlarla işin təşkilindən, onların düzgün seçilməsindən çox asılıdır. Təsadüfi deyil ki, icra xidmətinin səriştəli kadrlarla komplektləşdirilməsi üçün ədliyyə orqanlarına qulluğa qəbul müsabiqələrində uğur qazananların təxminən 60 faizi, əksəriyyəti gənclər olmaqla məhz icra qurumlarına təyin olunmuşlar. Əməkdaşlar peşəkarlıqlarının artırılması məqsədilə mütəmadi təlimlərə cəlb edilmiş, qabaqcıl beynəlxalq təcrübələrə yiyələnmək üçün xarici ölkələrə ezam olunmuş, xidmətdə fərqlənənlər isə rəhbər vəzifələrə irəli çəkilmişdir.

Ümumiyyətlə, möhtərəm Prezidentin çıxışlarında dəfələrlə vurğulandığı kimi, istənilən islahatın mərkəzində insan amili dayanır. Bu tələb icra sahəsində həyata keçirilən islahatlara şamil edildikdə bizlər təkcə layiqli kadrlarla işləməyə görə deyil, eləcə də vətəndaşlarla ünsiyyətin düzgün təşkilinə, onların qayğılarına həssas yanaşmağa görə böyük məsuliyyət daşıyırıq. Vətəndaş müraciətlərinə baxılması işini yaxşılaşdırmadan icra işinin təkmilləşdirildiyini deməyə haqqımız çatmaz. Bu prioritet həm Ədliyyə Nazirliyinin, həm də İcra xidmətinin rəhbərliyi tərəfindən daim diqqətdə saxlanılaraq müraciətlərin tam və vaxtında baxılıb həll edilməsi üçün bütün mümkün səylər göstərilir.

Ötən illər ərzində həyata keçirilən məqsədyönlü tədbirlərin, vətəndaşların yerlərdə müraciətlərinə və qəbulu işinə göstərilən diqqətli münasibətin nəticəsidir ki, nazirliyə qəbula gələn vətəndaşların sayında xeyli azalma olmuş, icra işi ilə bağlı müraciətlərin sayı da icra işlərinin artım sayına nisbətdə xeyli azalmışdır. Amma təbiidir ki, bu, bizi qətiyyən arxayın etmir, insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə vaxtında və dürüst baxılması hər bir icra xidməti əməkdaşının ümdə vəzifəsidir.

Əgər islahatların kökləndiyi ən vacib amillərdən birincisi insan amilidirsə, ikincisi heç şübhəsiz, müasir informasiya texnologiyalarının tətbiqidir. İş yükünün yüz minlərlə ölçüldüyü icra sahəsində üsul və vasitələrin modernləşdirilməsi qaçılmaz şərtə çevrilmişdir.

Fərəh doğuran hal kimi qeyd olunmalıdır ki, icraatların kağız formatından tam elektron müstəviyə keçirilməsini hədəfləyən və tətbiqinin genişləndirilməsi Ölkə başçısının adı çəkilən Fərmanında xüsusi vurğulanan "Elektron icra" informasiya sistemi artıq 3 ilə yaxındır ki, icra məmurlarının istifadəsindədir. Bu sistemin tətbiqi ilə icra sənədlərinin icrasının təşkili keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamına uyğun olaraq 2016-cı ilin sentyabr ayından yaradılmış "Elektron icra" informasiya sisteminin tətbiqinə 2017-ci ilin yanvar ayından başlanılmış, hazırda 32 qurumda tam tətbiq olunmaqla, 10-dək dövlət orqanlarının elektron informasiya bazalarına inteqrasiyası təmin edilmiş, bir sıra qurumlardan 30-a yaxın məlumat ani rejimdə əldə edilməklə icra prosesi əhəmiyyətli şəkildə sürətləndirilmişdir.

Artıq icra məmurları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən avtonəqliyyat vasitələri, o cümlədən onların üzərində həbsin və digər məhdudiyyətin olub-olmaması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən şəxslərin əmək haqqı, pensiya və digər ödənişləri, əmək müqaviləsi, eləcə də sığortaolunan qismində qeydiyyatının olub-olmaması, Əmlak Məsələləri Dövlət Xidmətindən borcluların daşınmaz əmlakları barədə məlumatları, Dövlət Vergi Xidmətindən hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin bank hesabları, habelə VÖEN üzrə olan bütün məlumatları, Əhalinin Dövlət Reyestri Xidmətindən şəxsiyyət vəsiqəsi, həmçinin qohumluq və ölüm faktı, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən tərəflərin mobil telefon nömrələri, notariuslardan vərəsəliyə dair şəhadətnamələrin, əmlaka dair etibarnamələrin verilib-verilməməsi barədə məlumatları, habelə daşınmaz əmlakların alğı-satqısı, icarəsi, ipoteka ilə yüklülüyünə dair məlumatları, həmçinin "ASAN" xidmət üzərindən Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, xarici pasportlar, diplomlar və sahibkarlıq sahəsində aparılan yoxlamalar barədə məlumatları ani rejimdə əldə edirlər. Yaxın gələcəkdə Fövqəladə Hallar və Kənd Təsərrüfatı nazirliklərindən borcluların digər tipli nəqliyyat vasitələrinə, Maliyyə Bazarlarına Nəzarət Palatasından qiymətli kağızlarına dair, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidməti, "Azərişıq", "Azərsu", "Azəriqaz" kimi qurumlardan digər aidiyyəti məlumatların elektron qaydada alınması üçün tədbirlər görülür.

Hazırkı vəziyyətində sistem işlərin icrası prosesini sürətləndirməklə yanaşı, mühüm məlumat mənbəyi və yerli qurumların fəaliyyətinə elektron nəzarət vasitəsi kimi çıxış edir. Belə ki, icraata daxil olan bütün kateqoriya icra sənədlərinin sistemdə təsnifatlar üzrə qeydiyyatı aparıldığından istənilən növ işə dair məlumatlar qısa müddətdə əldə edilə bilir. Digər tərəfdən isə sistem faktiki olaraq borcluların reyestri kimi istifadə olunur.

Əlavə olaraq qeyd olunmalıdır ki, hazırda Nazirliyin elektron xidmətlər bölməsi vasitəsilə vətəndaşlar icra xidmətinin bir sıra fəaliyyət istiqamətləri, o cümlədən ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, icra qurumları, onlar tərəfindən hərraca çıxarılan əmlaklar, eləcə də dəyəri 5 min manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri barədə məlumat almaq imkanına malikdirlər. Həmçinin borcun, icra ödənişinin, icra hərəkətləri ilə bağlı xərclərin elektron qaydada ödənilməsi mümkündür.

Bununla yanaşı, fiziki və hüquqi şəxslərə, o cümlədən kredit təşkilatlarına tərəf olduqları işlər barədə məlumatların verilməsini təmin edəcək elektron xidmətin yaradılması ilə bağlı intensiv iş aparılır.

"Elektron icra" informasiya sisteminin tətbiqi, təbii ki, icra xidmətinin maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı işlərə də əlavə təkan vermişdir. Yaxşı iş şəraitinə xüsusi diqqət yetirən Ədliyyə Nazirliyinin rəhbərliyinin tapşırıqları ilə Xidmətin infrastrukturunun müasirləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə ardıcıl tədbirlər görülür. Ötən dövrdə dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində 30-a yaxın yerli icra qurumları yeni inzibati binalarla, baş idarə və bütün yerli qurumlar əlavə komputer və digər texniki avadanlıqlarla təmin edilmişdir. Bununla yanaşı, xeyli sayda avtomobil alınaraq bütün yerli qurumların avtomobillərlə təchiz edilməsi həyata keçirilmişdir.

İcra işinin səmərəli təşkilində digər vacib faktor qanunvericilik bazasının daim yaxşılaşdırılması, hər an inkişaf etməkdə olan ictimai münasibətlərə uyğunluğunun təmin edilməsidir. İcra qanunvericiliyi tez-tez təkmilləşdirilsə də, icra sahəsində əsas qanunların qəbulundan kifayət qədər uzun müddət keçmiş, münasibətlər inkişaf edərək şaxələnmiş, icra işini nizamlayan normalar əsas qanunlarla yanaşı müxtəlif məcəllə və digər qanunvericilik aktlarına səpələnmiş, onların özündə müəyyən sui-istifadə amillərinə səbəb olan çatışmazlıq və boşluqlar, eləcə də aralarında ziddiyyətlər yaranmışdır. Bununla yanaşı, hazırda təcrübədə meydana çıxan kifayət qədər məsələlər, ya aidiyyəti qanunvericilikdə, ümumiyyətlə, tənzimlənməmiş, yaxud çox məhdud şəkildə nizamlanmışdır. Göstərilənlər icra qanunvericiliyini təşkil edən normativ hüquqi-aktların forma və məzmun baxımından yenidən işlənməsini və sistemləşdirilməsini zəruri edir.

Finlandiya, Estoniya, Almaniya, Niderland və başqa qabaqcıl Avropa ölkələrində uğurla tətbiq edilməsi, eləcə də ölkəmiz üzrə müvafiq qanunvericiliyin həcminin buna uyğun olması nəzərə alınaraq Ədliyyə Nazirliyinin rəhbərliyinin göstərişlərinə əsasən icra qanunvericiliyinin məcəlləşdirilməsi işlərinə başlanmış və intensiv iş aparılmaqla "Azərbaycan Respublikası İcra Məcəlləsi"nin layihəsi ərsəyə gətirilmişdir.

Layihə çoxsaylı yeni məsələləri nəzərdə tutmuşdur. İcra qanunvericiliyinin qüvvəsinə, icra icraatının prinsiplərinə aydınlıq gətirilməsi, icra sənədlərinin tərtibi və verilməsi, o cümlədən tələbkara təqdim olunması, icra icraatının subyektlərinin statusu ilə bağlı təkmil normalar, "Elektron icra" informasiya sisteminin tətbiqi, "özəl icra qurumları", "icra məmurlarının köməkçiləri" kimi institutların qanunvericiliyə gətirilməsi, hazırki normativ-hüquqi aktların lazımınca tənzimləmədiyi icra tapşırığı, icrada dönüş, icra icraatında müddətlər, çağırışlar və bildirişlər, qiymətləndirmə və hərrac kimi məsələlərə bütöv fəsillərin ayrılması, habelə Xüsusi hissədə demək olar ki, bütün kateqoriyadan olan icra sənədlərinin icrası qaydalarının ayrılıqda müəyyən edilməsi, icra məmurlarının sosial təminatının gücləndirilməsinə diqqətin artırılması bunlardan ən vacibləridir.

İcra sahəsində məcəlləşdirmə işinin aparılması aidiyyəti qanunvericilik normalarının günün tələblərinə uyğunlaşdırılmasına, onların daxili uzlaşdırılmış vahid sistemə çevrilməsinə, əlçatanlığına və tətbiqinin asanlaşdırılmasına, bu sahədə mövcud olan ziddiyyətlərin aradan qaldırılmasına, boşluqların doldurulmasına, icra prosesinin sürətləndirilməsinə və səmərəsinin artırılmasına, xarici ölkələrin müsbət təcrübəsinin tətbiqinə imkan verəcəkdir.

Bununla yanaşı, məcəlləşdirmə fəaliyyətinin kompleks xarakterli və uzun müddətli proses olması nəzərə alınaraq müntəzəm şəkildə qanunvericilik bazasının yaxşılaşdırılmasına yönələn layihələr hazırlanaraq aidiyyəti üzrə təqdim olunur. Fərmanda verilmiş tapşırıqlara uyğun olaraq Azərbaycan Respublikasının "İcra haqqında" və "İcra məmurları haqqında" qanunlarına, İnzibati Xətalar və Cinayət məcəllələrinə və digər qanunvericilik aktlarına mütərəqqi dəyişikliklər edilməsinə dair layihələr işlənib hazırlanmış və aidiyyəti üzrə təqdim olunmuşdur. Layihələr icra prosesinin sürətləndirilməsini, icra məmurlarının səlahiyyətlərinin artırılmasını, mübahisənin məcburi icradan kənar həllinə imkan yaradılmasını, icradan qərəzli yayınan borclular barədə məsuliyyət tədbirlərinin diferensiasiyasını nəzərdə tutur.

Müasir dövrün çağırışları icra xidmətində struktur məsələlərinə də yenidən baxılmasını zəruri etmişdir. Bununla bağlı icra xidməti əlavə ştat vahidləri ilə təmin olunmuş, eyni zamanda yerli probasiya orqanlarının İcra xidmətinin tərkibindən tam ayrılması ilə bağlı işlər davam etdirilir. Bununla bərabər, analitik təhlil və ciddi nəzarət tələb edən işlərin keyfiyyətli icrası üçün Ədliyyə Nazirliyi rəhbərliyinin xüsusi diqqəti sayəsində İcra Baş İdarəsinin tərkibində Analitik-Nəzarət Şöbəsi yaradılmışdır.

İşin üsul və vasitələrinin müasirləşdirilməsi tələbi təkcə icra alətlərinin və strukturların dəyişdirilməsini deyil, həm də icra qurumlarının özlərinin statusuna yenidən baxılmasını, icranın alternativ mexanizmlərinin öyrənilməsini, o cümlədən özəl qurumlara həvalə edilməsinin mümkünlüyünün nəzərdən keçirilməsini şərtləndirir. Təsadüfi deyil ki, cənab Prezidentin yuxarıda adıçəkilən və məhkəmə-hüquq sisteminin inkişafında "mayak" rolunu oynayan Fərmanında bu məsələ tam dəqiqliyi ilə öz təsbitini tapmışdır.

Verilmiş tapşırıqlara uyğun olaraq Ədliyyə Nazirliyinin nümayəndə heyəti Fransa, Niderland, Litva, Bolqarıstan və Gürcüstanda tətbiq edilən tam özəl, yaxud qarışıq icra modelləri ilə bilavasitə yerində tanış olmuş, faktiki icra proseslərini nəzərdən keçirmiş, istifadədə olan elektron sistemlərin xüsusiyyətləri barədə məlumat almış, habelə digər ölkələrin icra sistemlərinə dair məlumatları tədqiq etmiş, müsbət və mənfi cəhətlər hərtərəfli təhlil olunmuş və araşdırmanın nəticələri üzrə müvafiq məlumatlar ölkə rəhbərliyinə təqdim olunmuşdur. İcra xidməti icranın özəl və ya digər alternativ modellərinin tətbiqi ilə bağlı veriləcək tapşırıqları yerinə yetirməyə hazırdır.

Yeni dövrə qədəm qoyan icra xidmətinin fəaliyyətində mühüm şərtlərdən biri də ictimaiyyətlə kommunikasiyanın gücləndirilməsi, cəmiyyət üzvlərinin icra icraatı barədə hərtərəfli məlumatlandırılması, fiziki və hüquqi şəxslərin məhkəmə və digər orqanların qərarlarının icrasına sayğı ilə yanaşmağa təşviq edilməsi, icra orqanlarının işində ictimai iştirakçılığının artırılması, qeyri-hökümət təşkilatları ilə dialoq mühitinin yaradılması, səlahiyyətlərinin icrası zamanı onların irad və təkliflərinin nəzərə alınmasıdır.

Bu məqsədlə icra xidməti kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə edərək maarifləndirici verilişlər yayır. Hər həftənin bazar günü İctimai Televiziyada yayımlanan "Qanundan kənar" verilişinin "İcra məmuru" rubrikasında İcra xidmətinin fəaliyyəti ilə bağlı ətraflı məlumatlar verilir. Bundan əlavə müntəzəm olaraq xidmət əməkdaşları tərəfindən müxtəlif media vasitələrində çıxışlar edilir, məqalələr dərc etdirilir, media nümayəndələrinə brifinqlər verilir, qeyri-hökümət təşkilatları ilə vaxtaşırı görüşlər keçirilərək icra sahəsindəki problemlər və qarşıda duran vəzifələr cəmiyyətin baxış bucağından müzakirə olunur.

Bununla yanaşı, hər il xarici ölkələrə edilən işgüzar səfərlərdə icra sahəsindəki ən aktual problemlər çoxtərəfli formatda müzakirə edilir, onların həlli üzrə beynəlxalq təcrübə öyrənilərək ölkəmizdə tətbiqi üçün tədbirlər görülür.

Aparılan təhlillər onu göstərir ki, icra sənədlərinin sayı ildən ilə artsa da, ölkə rəhbərliyinin uzaqgörən islahatlarının işığında layiqli kadrların seçimi, elmi texniki nailiyyətlərin tətbiqi və günün tələblərinə cavab verən qanunvericilik bazasının formalaşdırılması ilə icra xidməti qanunla üzərinə qoyulmuş vəzifələrin öhdəsindən lazımınca gəlməyə nail olacaqdır.

Ədliyyəmizin yeni əsrində, yeni nailiyyətlərə! Bayramınız mübarək!

**Nurəddin MUSTAFAYEV,**
**Azərbaycan Respublikası**
**Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin**
**rəisi - Baş icra məmuru.**